**Mirzə M.** Xocalının Vətən müharibəsi şəhidləri // Respublika. - 2025. - 21 fevral. - **№ 39**. - S. 17.

**Kosalar kəndinə üçrəngli bayrağı sancmaq ən böyük arzusu idi**

Qanı bahasına torpaqlarımızı azad edənlərdən, yeni qəhrəmanlıq salnaməsində imzası olan igidlərimizdən biri də kəşfiyyatçı Əlizamin Ramazanlıdır. Əslən Xocalı rayonunun Kosalar kəndindən olan Əlizamin 2006-cı ildə Şuşa rayon 19 nömrəli tam orta məktəbinin 1-ci sinfinə gedib, 2017-ci ildə həmin məktəbi bitirərək Sərhəd qoşunlarında hərbi xidmətə başlayıb, 2019-cu ilin yanvar ayında hərbidən tərxis olunub.

Əlizaminin uşaqlıqdan Vətən, Ana sözləri dilində əzbər imiş. O, uşaq yaşlarından igid kimi böyüyürmüş. Əlizamin əsgər olarkən hər zaman Vətənin keşiyində layiqincə durmağı özünə borc bilib. Valideynlərinə "mən hərbi xidməti bitirsəm də, yenidən Vətənimin keşiyində durmağa qayıdacağam" deyirmiş. Valideynləri evin tək oğlu olduğu üçün bu iş çətin yoldur desə də, Əlizamin buna razı olmayıb. Vətənpərvər gənc valideynlərinə mən hərbçi olacağam deyərək 2020-ci il fevralın 13-də Sərhəd Qoşunlarında kəşfiyyatçı-gizir kimi işə başlayıb. Əlizamin kiçik yaşlarından anasından qohumu, Azərbaycanın Milli Qəhrəmanı Tabil Həsənovun döyüş yolunu tez-tez soruşarmış. "Qırxqız qartalı" ləqəbli Tabil Həsənov onun üçün qəhrəmanlıq məktəbi olub. Əlizamin Tabil Həsənovun qəhrəmanlıq hekayələri ilə böyüyüb, vətənpərvər gənc kimi yetişib. Onun döyüşkən ruhu Tabil Həsənovun qəhrəmanlıq dastanı ilə yoğrulmuşdu.

Anası ilə danışanda "məndən narahat olmayın, ən ağır silah sənin oğlundadır" - deyərək arxayın edərdi. Ana, sadəcə onu bil ki, hər şey Vətən üçündür. Əlizamin hər zaman ailəsi ilə danışanda onun son sözləri mən yaxşıyam, təki siz yaxşı olun, təki Vətən sağ olsun sözləri olarmış. Xocalıya bayrağımızı özüm sancacağam deyərmiş. Görmədiyi ata yurdu Xocalının Kosalar kəndində bayrağımızı qaldırmaq ən böyük arzusu idi.

Xüsusi Təyinatlı Qüvvələrdə işlədiyi üçün necə işlədiyi, nələr etdiyi haqqında danışmazdı. Çünki həmişə deyərdi ki, kəşfiyyatçı görünmədən görmək, ölmədən dönməkdir. Əzizləri ilə danışanda qürurla Xüsusi Təyinatlı Qüvvələrdə işləmək hər oğlun işi deyil söyləyərdi. Doğrudan da belədir. Əlizamin Tovuz döyüşlərində də igidliklə döyüşərək məharətini göstərib. Sentyabr ayının əvvəlində ailəsi ilə görüşə gəldikdə anasına papağını, atasına isə ətrini hədiyyə edib. Əlizamin sanki şəhid

olacağını bilirmiş kimi vidalaşıb evdən çıxarkən, son görüşündə "ana, gəl şəkil çəkdirək, bu şəklimizi xatirə saxlayarsan" deyərək evdən ayrılıb.

Vətən müharibəsi başladığı gündən yalnız düşməni məhv etmək məqsədilə vuruşan Əlizamin Ramazanlı Murovdağ silsiləsinin alınması uğrunda döyüşlərdə iştirak edib, Kəlbəcər tərəfdə kəşfiyyat əməliyyatlarında ön sıralarda olub. Sonra Füzuli istiqamətində döyüşlərə qatılıb. Şəhid olduğu gün isə döyüş yoldaşının maşından düşməsini xahiş edərək "erməni öldürməyə mən gedəcəyəm" deyib. Komandiri isə Əlizaminə "sən yeni gəlmisən, gözlə" desə də, o xahişində təkidli olub. Əlizamin Ramazanlı oktyabr ayının 9-u Hadrut uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

**Hər zaman şəhidlik zirvəsinin ucalığından danışarmış...**

Şəhid Namiq Rəhbər oğlu Cavadov Xocalı rayonunun Cəmilli kəndində dünyaya göz açıb. 1980-ci ildə Tofiq Hüseynov adına Xocalı şəhər 2 saylı tam orta məktəbin 1-ci sinfinə gedən Namiq oxuduğu illər ərzində vətənpərvərliyi ilə seçilirmiş. Nümunəvi şagird kimi müəllimləri tərəfindən hər zaman sevilən, dürüstlüyü və dostluğu ilə sinif yoldaşlarının özünə ən yaxın bildiyi biri olmuşdur. 1993-cü ildə BDU-nun coğrafiya fakültəsinə daxil olmuş, 1997-ci ilə qədər davam edən ali təhsili zamanı həm də həmin universitetin hərbi kafedrasında da təhsil almışdır. Leytenant rütbəsi ilə 2003-cü ildə Naxçıvan şəhərinin Sədərək rayonunda 2 il 6 ay Vətənə xidmət edərək əsgərlərinin və zabit heyətinin dərin hörmətini qazanmışdır. Namiqlə olan xatirələrdən danışan zabit yoldaşları onun səlisliyi, dəqiq qərarlığı, əsgərlərinə necə diqqətlə yanaşmasını, onlara canının bir qardaş, bir valideyn kimi yanmasını dilə gətirirlər. Öz ixtisasının atıcı-snayper olmasına baxmayaraq, tank sürməyi, mina dəf etməyi də bacarırmış.

Hər zaman işğal olunmuş torpaqların həsrətindən danışan, müharibə olmağını səbirsizliklə gözləyən Namiq şəhidlik zirvəsinin ucalığından bəhs edərmiş.

Vətən müharibəsi zamanı ehtiyatda olan leytenant Namiq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə çoxsaylı müraciətlər edərək oktyabrın 19-u Vətən uğrunda döyüşlərə çağırılmışdır. Hərbidən ayrıldığı 15 ilə yaxın olmasına baxmayaraq, könüllü olaraq ön cəbhəyə getmiş, Qubadlı döyüşlərində iştirak etmişdir. Burada gedən ağır döyüşlərdə şücaətlər göstərərək, Laçının Güləbird qəsəbəsinə kimi getmişdir. Döyüşlər zamanı 60 əsgərdən ibarət kazarmanı təhlükəli

vəziyyətdən çıxarmış, 20 yaralı əsgərə köməklik göstərərək həyatlarını xilas etmişdir. Oktyabr ayının 25-i, döyüşə yollandığının 6-cı günündə Laçının Güləbird qəsəbəsində şəhidlik zirvəsinə ucalmışdır. II Fəxri xiyabanda dəfn olunmuşdur. "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.